# 27 SENTYABR - ANIM GÜNÜ

*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

26 sentyabr 2026-cı il №36 (9189) www.muallim.edu.az muallim@media.edu.az

# Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq



*Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2021-ci ildə Anım Günü ilə əlaqədar xalqa müraciətindən*

Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır... İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq... Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir... Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır... Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm:

## "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

## Şəhid təhsil işçiləri

**Rəvan Lətifov**

Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Təhsilin təşkili və idarə olunması" ixtisası üzrə təhsil alıb. Ə.Abdulhüseynov adına Sincan kənd tam orta məktəbində məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı vəzifəsində işləyirdi. Noyabrın 6-da Daşaltı-Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

**Xalid Nəciyev**

Saatlıda doğulub. Saatlı şəhərində Səməd Vurğun adına 1 nömrəli tam orta məktəbdə təhsil alıb. 2009-2013-cü illərdə Gəncə Dövlət Universitetində (GDU) "Tarix-coğrafiya" ixtisası üzrə ali təhsil alıb. 2017-2018-ci illərdə tarix və coğrafiya müəllimi işləyib. Noyabrın 5-də Laçın döyüşləri zamanı Səfiyan istiqamətində şəhid olub. Ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

**Qoşqar Ömərov**

Kürdəmir rayonunun Şilyan (Qarasu) kəndində müəllim ailəsində anadan olub. 2018-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsinin imtahan mərhələsində 57 bal toplayaraq Masazır kənd 5 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimliyinə başlayıb. Şuşanın Daşaltı kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.




### Sarsılmaz qardaşlığın parlaq rəmzi

Bax səh.2

### Elm və Təhsil Nazirliyi ilə "OpenAI" süni intellektin təhsildə tətbiqi üzrə əməkdaşlığı genişləndirir

Bax səh.3

### Məktəbli formalarına dair dəyişikliklər təsdiqlənib

Bax səh.5

### ""Heydər Əliyev adına təqaüd"ə layiq görülməyim mənim üçün qürurvericidir"

Bax səh.7

# SARSILMAZ QARDAŞLIĞIN PARLAQ RƏMZİ

**Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyan Daşkənd Milli Pedaqoji Universitetinin tələbə-müəllim heyəti üçün cari tədris ili əlamətdar hadisə ilə yadda qalıb. Ölkənin ən nüfuzlu ali pedaqoji universitetinin tələbələri 2026-2027-ci tədris ilini yeni kampusda qarşılayıblar. Avqustun 23-də Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən yeni binasının açılışı olan universitet qardaş xalqlar arasında tarixi mədəni köklərə söykənən dostluq və qardaşlığın yüksək səviyyəsini əks etdirir. “Azərbaycan müəllimi” bu araşdırmasında zəngin akademik ənənələri ilə Özbəkistanın ən böyük elm və təhsil mərkəzlərindən biri kimi tanınan ali təhsil müəssisəsinin inkişaf yoluna işıq salır. Universitetin təxminən 90 illik tarixi ərzində 300 mindən çox elmi və pedaqoji kadr yetişdirib. Məzunlar təkcə Özbəkistanda deyil, həm də dünyanın müxtəlif ölkələrində təhsil sisteminin inkişafında fəal iştirak edir.**



**Universitetin təxminən 90 illik tarixi ərzində 300 mindən çox elmi və pedaqoji kadr yetişdirib**

**730 müəllim və elmi-pedaqoji işçinin çalışdığı universitetdə 17 mindən çox tələbə, o cümlədən 6 Azərbaycan vətəndaşı olan tələbə, magistrant və müstəqil tədqiqatçı kimi təhsil alır**

**Özbəkistan Milli Pedaqoji Universiteti QS Asiya Universitetləri reytinqində - Mərkəzi Asiyada 35-ci, QS Asiya Universitetləri reytinqində ümumilikdə 588-ci, “Times Higher Education” Təsir reytinqində 978-ci yerdədir (2025-ci il üzrə)**

**Ölkəmizlə əməkdaşlıq çərçivəsində Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin ilk 5 məzunu qrant əsasında bu universitetdə təhsil almaq hüququ qazanıb**

**Azərbaycan-turk əsilli şair, müasir özbək ədəbiyyatının banilərindən biri olan Maqsud Şeyxzadə 1938-ci ildən ömrünün sonuna qədər Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetində özbək ədəbiyyatı tarixini tədris edib**

## Dahi Nizaminin adını daşıyan Daşkənd Milli Pedaqoji Universiteti Azərbaycan - Özbəkistan ali təhsil əlaqələrinə mühüm töhfə verir

### Universitetin tarixindən

Nizami Gəncəvi adına Özbəkistan Milli Pedaqoji Universiteti (NPUU) 14 sentyabr 1935-ci ildə Özbəkistan Respublikası Xalq Təhsili Komissarlığının 13/64 nömrəli əmri ilə Orta Asiya Dövlət Universitetinin Pedaqogika fakültəsinin bazasında yaradılıb. 1947-ci ildə dahi Azərbaycan şairi Nizami Gəncəvinin şərəfinə Nizami adına Daşkənd Dövlət Pedaqoji İnstitutu adlandırılıb.

Bu təhsil müəssisəsi 1953-cü ildən 1998-ci ilə qədər Pedaqoji İnstitutu adı altında fəaliyyət göstərib. Özbəkistan Respublikası Nazirlər Kabinetinin 24 fevral 1998-ci il tarixli "Akademik liseylərin və peşə kolleclərinin təşkili və idarə edilməsi haqqında" qərarına uyğun olaraq, instituta Daşkənd Dövlət Pedaqoji Universiteti statusu verilib. Ali məktəb akademik liseylər və peşə kollecləri üçün ixtisaslı müəllim heyətinin hazırlanması üzrə aparıcı ali təhsil müəssisəsi kimi müəyyən olunub və bu, bütün kollektiv üzərinə böyük məsuliyyət qoyub.

### Yeniləşən pedaqoji universitet

Özbəkistan Prezidentinin 28 aprel 2025-ci il tarixli Fərmanı ilə universitetdə islahatlara başlanılıb. Ali məktəb qarşısında ölkənin aparıcı müəllim hazırlığı universitetinə çevrilmək və elmi fəaliyyətin, müəllim hazırlığı işinin beynəlxalq standartlara uyğun aparılmasını təmin etmək vəzifəsi qoyulub. Universitetdə 30 ixtisas- Pedaqogika, Pedaqogika nəzəriyyəsi və tarixi, Testologiya və qiymətləndirmə, Təhsil metodologiyası (məktəbəqədər), Xüsusi pedaqogika: nitq terapiyası, Xüsusi pedaqogika: surdopedaqogika, Xüsusi pedaqogika: oliqofrenopedaqogiya, Tədris metodologiyası (ibtidai sinif), Təsviri incəsənət, Mühəndislik Qrafikası və Dizaynı, Musiqi təhsili və incəsənət, Özbək dili və ədəbiyyatı, Rus dili və ədəbiyyatı, Xarici dil: İngilis dili, Koreya dili, Təhsil metodologiyası (hərbi), Sosial və humanitar elmlər (mənəviyyat), Sosial və Humanitar Elmlər (Hüquq), Bədən tərbiyəsi nəzəriyyəsi, Təhsil metodologiyası (texnoloji), Sosial və humanitar elmlər (tarix), Psixologiya, Dəqiq elmlərin metodologiyası (biologiya), Dəqiq elmlərin metodologiyası (kimya), Dəqiq elmlərin metodologiyası (coğrafiya), Dəqiq elmlərin metodologiyası (fizika), Dəqiq elmlərin metodologiyası (riyaziyyat), İnformasiya sistemləri, Təhsildə informasiya texnologiyaları üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Hazırda universitetdə 700-dən çox professor-müəllim heyəti dərs deyir. Universitetdə üç kolleksiyadan ibarət muzey kompleksi var: Universitetin tarixi muzeyi, Arxeologiya muzeyi və Zoologiya tədris muzeyi.

### İdarəetmə və struktur

Universitetin idarəçiliyi 2025-ci ildə ölkə başçısının müvafiq fərmanı ilə müəyyən edilmiş yenidənqurmadan sonra əhəmiyyətli dərəcədə dəyişdirilib. Ali təhsil müəssisəsi ən yüksək kollegial orqan olmaqla, Universitet Şurası tərəfindən idarə olunur. Şura universitetin bütün sahələri üzrə fəaliyyətini əlaqələndirir və kollektiv qarşısında duran təcili vəzifələrin tez və keyfiyyətli həllinə yönəlmiş qərarlar qəbul edir. Şuraya universitetin rektoru sədrlik edir. Şuraya prorektorlar, fakültə dekanları, aparıcı professor və müəllimlər, eləcə də tərəfdaş qurumların nümayəndələri daxildir.

Şuranın əsas vəzifəsi milli kadr hazırlığı proqramının həyata keçirilməsini əlaqələndirmək, müasir pedaqoji və informasiya texnologiyalarının geniş tətbiqi əsasında yüksəkixtisaslı, rəqabətədavamlı kadrların hazırlanmasını təmin etmək, tələbələrdə vətənpərvərlik, vətəndaşlıq, milli və ümumbəşəri dəyərlərə sədaqət kimi yüksək mənəvi və əxlaqi keyfiyyətlər formalaşdırmaqdır. Universitet Şurası illərdir ki, pedaqoji elmin, təlim və təhsilin inkişafının aktual məsələlərinə dair tövsiyələrin hazırlanması üzərində işləyir. Uzunillik fəaliyyəti dövründə Şura yüzlərlə elmi tədqiqat mövzusunu, tədqiqat nəticələrinin praktikada tətbiqi vəziyyətini müzakirə edib təsdiqləyib ki, bu da respublika təhsil sisteminin inkişafına mühüm töhfə olub.

Universitetin strukturunda 6 ali pedaqoji məktəb, həmçinin 1 Birgə Təhsil Ali Məktəbi və 1 magistratura şöbəsi fəaliyyət göstərir. Burada, ümumilikdə, 33 kafedra var. Universitetdə bakalavriat üzrə 38, magistratura üzrə isə 31 ixtisasda kadrlar hazırlanır. 730 müəllim və elmi-pedaqoji işçinin çalışdığı universitetdə 17 mindən çox tələbə, o cümlədən 6 Azərbaycan vətəndaşı olan tələbə magistrant və müstəqil tədqiqatçı kimi təhsil alır. Eyni zamanda, burada dünyanın 13 ölkəsindən 250 nəfər təhsilini davam etdirir.

Nizami Gəncəvi adına Özbəkistan Milli Pedaqoji Universitetinin rektoru Özbəkistanın tanınmış dövlət xadimi, təhsil sahəsində rəhbər vəzifələrdə çalışmış Hilola Umarovadır. O, 2022-2025-ci illərdə Özbəkistanın məktəbəqədər və məktəb təhsili naziri olub.

### Reytinqlərdə yeri

Özbəkistan Milli Pedaqoji Universiteti QS Asiya Universitetləri reytinqində - Mərkəzi Asiyada 35-ci, QS Asiya Universitetləri reytinqində ümumilikdə 588-ci, “Times Higher Education” Təsir reytinqində 978-ci yerdədir (2025-ci il üzrə). 2025-ci il UI GreenMetric reytinqində NPUU yeddi davamlılıq kateqoriyası üzrə ümumilikdə 5260 bal toplayıb: Ətraf mühit və infrastruktur (635), Enerji və iqlim dəyişikliyi (1050), Tullantılar (875), Su (587.5), Nəqliyyat (1112.5) və Təhsil və tədqiqat (1000). Universitet 105 ölkədən 1745 ali təhsil müəssisəsinin qiymətləndirildiyi 2025-ci il reytinqində ilk 1000-də yer tutan 38 Özbəkistan ali təhsil müəssisəsi arasındadır.

### Beynəlxalq əməkdaşlıq

Universitet 2025/2026-cı tədris ilindən etibarən bütün təhsil sahələri üzrə ikidilli beynəlxalq təhsil proqramlarını tətbiq edir və qlobal universitet statusu qazanmaq strateji məqsədinin bir hissəsi olaraq beynəlxalq tədris planları və qiymətləndirmə sistemləri mərhələli şəkildə tətbiq olunur.

Dünyanın 20-dən çox ölkəsindən xarici tərəfdaş universitetlər, müəssisələr və təşkilatlar arasında ümumilikdə 200-dən çox Anlaşma Memorandumu imzalanıb. Universitetin beynəlxalq əməkdaşlığı əsasən birgə tədqiqat layihələrinə, akademik mübadilə proqramlarına və dünya üzrə tərəfdaş müəssisələrlə elmi əməkdaşlığa yönəlib.

Azərbaycan və Özbəkistan arasında mədəni-humanitar sahədə əməkdaşlığın bariz nümunəsi olan Nizami Gəncəvi adına Milli Pedaqoji Universiteti Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə anlaşma memorandumları imzalayıb.

Ali təhsil müəssisəsində təhsil alan əcnəbi tələbələrin sayı da ildən ilə artır. Hazırda əcnəbi tələbələr ümumi tələbə sayının 3 faizini təşkil edir. Ölkəmizlə əməkdaşlıq çərçivəsində Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin ilk 5 məzunu qrant əsasında bu universitetdə təhsil almaq hüququ qazanıb.

Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin fəaliyyətə başlamasından ötən üç il ərzində Azərbaycan və Özbəkistan şagirdləri arasında dostluq və əməkdaşlıq əlaqələri daha da inkişaf edib. Məktəbin məzunlarının 20 faizi Daşkənddəki Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetə qəbul olunub.

### Universitetin əsas göstəriciləri

Xarici professor və müəllimlərin sayı 62 nəfər, universiteti bitirmə nisbəti 94 faiz, təhsildən sonrakı məşğulluq nisbəti 95%, beynəlxalq akkreditasiyadan keçmiş proqramların sayı 7, məzunların ümumi sayı 6,179 (2025), təlim laboratoriyaları 16, müəllim və professorların sayı 732, işçilərin ümumi sayı 1354, tələbələrin sayı 18187, xarici tələbələrin sayı 208, tərəfdaş universitetlər 105, tələbələrin təmsil etdiyi ölkələrin sayı 13.

### Məşhur məzun və müəllimləri

Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti yarandığı 1935-ci ildən bəri Özbəkistanın elmi, ədəbi, mədəni və ictimai həyatında böyük töhfələr vermis yüzlərlə görkəmli şəxsiyyət yetişdirmişdir.

SSRİ Dövlət Mükafatı laureatı (1976), Sosialist Əməyi Qəhrəmanı (1984) Zülfiyyə İsrailova ali məktəbin tanınmış məzunları arasında xüsusi yer tutur.

Azərbaycan-turk əsilli şair, müasir özbək ədəbiyyatının banilərindən biri olan Maqsud Şeyxzadə 1938-ci ildən ömrünün sonuna qədər Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində özbək ədəbiyyatı tarixini tədris edib.

Özbək və sovet yazıçısı, şair, dramaturq və tərcuməci, Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Qulom Alimov (Şuhrat) 1936-cı ildən 1940-cı ilə qədər bu ali məktəbdə təhsil alıb.

Ali təhsil müəssisəsində müəllim kimi çalışmış elm, maarif və ictimai xadimlər arasında görkəmli pedaqoq alim, professor, Özbəkistanda pedaqogika elminin əsasını qoyanlardan biri Siddik Rajabov, filosof, akademik və ictimai xadim Erkin Yusupov, fizik alim, Özbəkistan Elmlər Akademiyasının akademiki və keçmiş prezidenti Pulat Habibullayev, tanınmış dilçi alim, özbək dialektologiyasının banilərindən biri Shonazar Shoabdurakhmanovun adlarını çəkmək olar.

**Oruc MUSTAFAYEV**

# Prezident İlham Əliyev Fərman imzalayıb

### *Dövlət ümumi təhsil müəssisələrində yeni maliyyələşmə mexanizmi tətbiq ediləcək*

Prezident İlham Əliyev "Dövlət ümumi təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Fərman imzalayıb.

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, dövlət ümumi təhsil müəssisələrində 2026-2027-ci tədris ilindən başlayaraq dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə mərhələli şəkildə adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirilməlidir. Adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi nəzərdə tutulan dövlət ümumi təhsil müəssisələrində ümumi təhsil müəssisələrinin növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalı tətbiq edilməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrində ümumi təhsil müəssisələrinin növləri üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarını, habelə adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi həyata keçirilən dövlət ümumi təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına ümumi təhsilin ayrı-ayrı səviyyələri üzrə artım əmsalının tətbiq edilməsi qaydalarını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Elm və Təhsil Nazirliyi hər növbəti təqvim ili üçün dövlət büdcəsinin vəsaiti hesabına adambaşına maliyyələşdirmə prinsipi əsasında maliyyələşdirilməsi nəzərdə tutulan dövlət ümumi təhsil müəssisələrinin siyahısını və təhsilalanlarının sayını Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etməlidir.

# Doktorantların və gənc tədqiqatçıların 29-cu Respublika elmi konfransı (NASCO29) keçiriləcək

**30-31 oktyabr tarixlərində Naxçıvan Dövlət Universitetində "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransı (NASCO29) keçiriləcək.**

## Konfrans "Şəhərsalma və Memarlıq İli"nə həsr olunacaq




Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçiriləcək konfransda ölkənin müxtəlif bölgələrindən və elmi istiqamətlərdən olan doktorantların, dissertantların və gənc tədqiqatçıların iştirakı nəzərdə tutulur.

Konfransda Azərbaycan Respublikasının vətəndaşı olub ölkə daxilində və ya xaricdə fəaliyyət göstərən ali təhsil və elmi müəssisələrdə fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorant və dissertantlar, eləcə də Azərbaycanda fəaliyyət göstərən ali təhsil və elmi müəssisələrdə fəlsəfə doktoru proqramı üzrə təhsil alan əcnəbi doktorant və dissertantlar iştirak edə bilərlər. Yaşı 35-dən yuxarı olmayan elmi dərəcəyə malik şəxslər də konfransa qoşula bilərlər.

Tədbir çərçivəsində elmi məruzə və müzakirələrlə yanaşı, iştirakçılar üçün müxtəlif sosial-mədəni proqramların, o cümlədən turizm səfərləri, əyləncə proqramları və konsertlərin təşkili nəzərdə tutulur. Bölmə iclaslarında fərqlənən iştirakçıların hədiyyə və mükafatlarla təltif olunması da planlaşdırılır.

Konfransda iştirak ödənişsizdir. Görüş ənənəvi və onlayn formatda təşkil olunacaq. Onlayn iştirakçıların sayı hər bir müəssisə üzrə ümumi iştirakçıların 30 faizindən çox olmamalıdır.

Məqalə və tezislərin qəbulu 1 oktyabr 2026-cı il tarixinədək davam edəcək.

Konfrans, iştirak şərtləri, tezislərin tərtibat qaydaları və qeydiyyatla bağlı ətraflı məlumatı **konfrans.ndu-.edu.az** saytından əldə etmək mümkündür.

# ELM VƏ TƏHSİL NAZİRİ BMT BAŞ ASSAMBLEYASININ 81-Cİ SESSİYASI ÇƏRÇİVƏSİNDƏ ABŞ-DA SƏFƏRDƏ OLUB

## Emin Əmrullayev "Gələcəyi Birlikdə Qurmaq naminə Tərəfdaşlıq" tədbirində iştirak edib





**Elm və təhsil naziri Emin Əmrullayev BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən "Gələcəyi Birlikdə Qurmaq naminə Tərəfdaşlıq" tədbirində iştirak edib.**

Gələcəyi Birgə Qurmaq naminə Qlobal Koalisiya və ABŞ Dövlət Departamentinin ən yaxşı gələcək nəsillər üzrə xüsusi nümayəndəsi Çeriti Uolles tərəfindən təşkil olunan tədbirdə uşaqların və gənclərin rəqəmsal dövrdə öyrənməsi, inkişafı və rifahının dəstəklənməsi, keyfiyyətli təhsilə çıxış imkanlarının genişləndirilməsi, habelə bu sahədə hökumətlər, beynəlxalq tərəfdaşlar və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub.

Tədbir çərçivəsində uşaqların və gənclərin təhsil və qabaqcıl texnologiyalardan faydalanmaq imkanlarının genişləndirilməsinə yönəlmiş yeni dövlət-özəl sektor tərəfdaşlıqları təqdim olunub. Belə ki, "Adobe", "Amazon", "Google", "Intel", "N50", "Starlink" və "Zoom" şirkətləri tərəfindən müxtəlif ölkələrdə təhsil, rəqəmsal bacarıqlar və texnologiyalara çıxışın genişləndirilməsini nəzərdə tutan yeni təşəbbüslər elan edilib.

Qeyd edək ki, Gələcəyi Birgə Qurmaq naminə Qlobal Koalisiya 23 sentyabr 2025-ci il tarixində BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində ABŞ-nin Birinci xanımı Melaniya Trampın təşəbbüsü ilə yaradılıb. Koalisiyanın əsas məqsədi uşaqların rəqəmsal dövrdə təhsil, innovasiya və qabaqcıl texnologiyalardan faydalanmaq imkanlarının genişləndirilməsi, onların onlayn mühitdə təhlükəsizliyinin gücləndirilməsi, eləcə də rəqəmsal savadlılıq və bacarıqlarının inkişaf etdirilməsini təmin etməkdir.





## Nazir uşaqlar üçün təhlükəsiz rəqəmsal sistemlərin qurulmasına dair yüksək səviyyəli tədbirdə iştirak edib

**Elm və təhsil naziri Emin Əmrullayev BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən "Görünməz memarlıq: uşaqlar üçün təhlükəsiz rəqəmsal sistemlərin qurulması — beynəlxalq standartların və ortaq məsuliyyətin gücləndirilməsi" mövzusunda yüksək səviyyəli tədbirdə iştirak edib.**

Türkiyə Respublikasının Birinci xanımı Əminə Ərdoğanın rəhbərliyi altında Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən BMT-nin Uşaq Fondu və BMT Baş katibinin Uşaqlara Qarşı Zorakılıq üzrə Xüsusi Nümayəndəsinin Ofisi ilə birgə təşkil olunan tədbirdə bir sıra ölkələrin birinci xanımları, yüksək vəzifəli dövlət rəsmiləri, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri, eləcə də özəl sektor, akademik dairələr və vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Tədbirdə uşaqların rəqəmsal mühitdə üzləşdiyi risklər, onların onlayn təhlükəsizliyinin qorunması, yaşa uyğun rəqəmsal xidmətlərin təşviqi, texnologiya şirkətləri və rəqəmsal platformaların məsuliyyətinin gücləndirilməsi, eləcə də süni intellekt və digər yeni texnologiyaların uşaqların təhlükəsizliyinə təsiri məsələləri müzakirə olunub. Eyni zamanda, görüş çərçivəsində uşaqların rəqəmsal mühitdə qorunması üzrə BMT çərçivəsində ümumi beynəlxalq minimum standartların formalaşdırılması, habelə dövlətlər, beynəlxalq təşkilatlar, texnologiya şirkətləri və digər maraqlı tərəflər arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

# Elm və Təhsil Nazirliyi ilə "OpenAI" süni intellektin təhsildə tətbiqi üzrə əməkdaşlığı genişləndirir



**Elm və Təhsil Nazirliyi ilə "OpenAI" şirkəti arasında təhsil sahəsində süni intellekt texnologiyalarından istifadənin genişləndirilməsini nəzərdə tutan üçillik Anlaşma Memorandumu imzalanıb. Sənəd Nyu-Yorkda elm və təhsil naziri Emin Əmrullayev və "OpenAI" şirkətinin təhsil üzrə vitse-prezidenti Leah Belsky tərəfindən imzalanıb.**

Yeni əməkdaşlığın əsas məqsədi süni intellekt texnologiyalarından istifadə etməklə müəllim və şagirdlər üçün tədris və öyrənmə imkanlarının təkmilləşdirilməsi, təhsil prosesinin daha səmərəli və əlçatan təşkili, həmçinin təhsil müəssisələrində süni intellektdən təhlükəsiz və məsuliyyətli istifadəyə dair yanaşmaların formalaşdırılmasıdır.

Əməkdaşlıq çərçivəsində süni intellekt əsaslı tədris alətlərinin hazırlanması, müəllim və digər təhsil işçilərinə yeni texnologiyalardan səmərəli istifadə üzrə təlimlərin keçirilməsi, eləcə də məktəblərdə süni intellektdən təhlükəsiz və məsuliyyətli istifadəyə dair standart və metodiki yanaşmaların hazırlanması nəzərdə tutulur.

Əməkdaşlığın əsas istiqamətlərindən biri riyaziyyat, təbiət elmləri və oxu fənləri üzrə təhsilin idarəolunması sisteminin "OpenAI" texnologiyalarından istifadə edilməklə inkişaf etdirilməsidir. Yeni imkanların müəllimlərə dərslərin hazırlanması, tədris materiallarının formalaşdırılması və şagirdlərin qiymətləndirilməsi prosesində süni intellekt əsaslı dəstək göstərməsi nəzərdə tutulur. Bununla müəllimlərin hazırlıq və inzibati işlərə sərf etdiyi vaxtın optimallaşdırılması və şagirdlərlə birbaşa işə daha çox vaxt ayırmaları hədəflənir.

Bununla yanaşı, müəllimlər, tələbələr və təhsil müəssisələrinin əməkdaşları üçün süni intellekt üzrə müxtəlif təlim proqramlarının həyata keçirilməsi planlaşdırılır. "Təlimçilərin təlimi" proqramı vasitəsilə süni intellekt sahəsində yerli mütəxəssis və təlimçi potensialının gücləndirilməsi nəzərdə tutulur.

Tərəflər həmçinin təhsil sahəsində süni intellektdən təhlükəsiz, etik və məsuliyyətli istifadəyə dair metodiki yanaşmaların, tövsiyələrin və müvafiq çərçivələrin hazırlanması istiqamətində əməkdaşlıq edəcəklər.

Qeyd edək ki, bu, Elm və Təhsil Nazirliyi ilə "OpenAI" arasında imzalanan ikinci Anlaşma Memorandumudur. İlkin əməkdaşlıq çərçivəsində adaptiv öyrənmə platformasının hazırlanması prosesi həyata keçirilib.

# Regionda ilk dəfə Azərbaycanda Spartan Aeronavtika və Texnologiya Məktəbinin filialı fəaliyyətə başlayır







**Milli Aviasiya Akademiyasında (MAA) ABŞ-nin aviasiya təhsili sahəsində ixtisaslaşmış ali təhsil müəssisələrindən biri olan Spartan Aeronavtika və Texnologiya Məktəbinin fəaliyyətə başlamasına həsr olunan açılış mərasimi keçirilib. MAA-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə akademiyanın rektoru, akademik Arif Paşayev, ADA Universitetinin rektoru, professor Hafiz Paşayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, "Azərbaycan Hava Yolları" QSC-nin İdarə Heyətinin sədri Samir Rzayev, ABŞ-nin Spartan Aeronavtika və Texnologiya Kollecinin və "Spartan Education Group"un nümayəndələri iştirak ediblər.**

Akademik Arif Paşayev çıxışında müasir aviasiyanın yalnız yüksəkixtisaslı kadr hazırlığı deyil, eyni zamanda, elmi-tədqiqatların, yeni texnologiyaların və praktiki tətbiqlərin vəhdəti əsasında inkişaf etdirilməsinin vacibliyindən danışıb. O qeyd edib ki, aviasiya təhsilinin elmi potensialla dəstəklənməsi və beynəlxalq təcrübə ilə zənginləşdirilməsi Azərbaycan aviasiyasının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanın nəqliyyat infrastrukturunun, o cümlədən hava nəqliyyatı sektorunun inkişafı istiqamətində həyata keçirilən layihələrdən danışıb.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Spartan Aeronavtika və Texnologiya Məktəbinin filialının Azərbaycanda fəaliyyətə başlamasını ölkənin aviasiya təhsili və insan kapitalının inkişafı baxımından mühüm hadisə kimi qiymətləndirib.

"Azərbaycan Hava Yolları" QSC-nin İdarə Heyətinin sədri Samir Rzayev Akademiyada uçuş hazırlığının təşkili, praktiki təlim imkanları və müasir aviasiya mütəxəssislərinin hazırlanması üçün yaradılan şəraitdən danışıb. O, MAA-da yeni fəaliyyətə başlayan Beynəlxalq Təlim Mərkəzinin bu prosesdə mühüm rolunu vurğulayıb. Spartan Azərbaycan Aviasiya Məktəbinin fəaliyyətə başlamasını da bu istiqamətdə növbəti mühüm addım kimi dəyərləndirib.

Azərbaycanda ilk "FAA A&P" lisenziya proqramının təşəbbüskarı və dəstəkçisi, "ALG" şirkətinin təsisçisi Fərhad Azima isə bildirib ki, Spartan Azərbaycan Aviasiya Məktəbinin fəaliyyətə başlaması Azərbaycan aviasiya təhsilində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və yeni nəsil aviasiya mütəxəssislərinin hazırlanmasında mühüm rol oynayacaq.

Tədbirdə çıxış edən "Spartan Education Group"un Baş İcraçı Direktoru Robert Polston, Strategiya və Biznesin İnkişafı üzrə icraçı vitse-prezidenti Daniel Bregman və Direktorlar Şurasının üzvü, kapitan David Bourne ABŞ-nin aviasiya təhsili sahəsində təcrübəsi, beynəlxalq əməkdaşlığın əhəmiyyəti və yeni layihənin perspektivləri barədə fikirlərini bölüşüblər.

ADA Universitetinin prorektoru Vəfa Kazdal da çıxış edərək təhsil tərəfdaşlığının əhəmiyyətini vurğulayıb.

Spartan Aeronavtika və Texnologiya Məktəbinin Azərbaycanda fəaliyyətə başlaması münasibətilə tərəflər arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Qeyd edək ki, 63 tələbənin təhsil alacağı yeni məktəbdə tədrisin təşkilinə artıq başlanılıb. İyunun 1-dən tələbələr üçün ingilis dili kursları keçirilir. Tədris prosesinə isə noyabrın 16-dan start veriləcək.

Sonda xatirə fotosu çəkdirilib.

# "UI GreenMetric Sustainable University Rankings 2026 Results and Awards Ceremony" keçirilib





Sentyabrın 23-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) UI GreenMetric ilə birgə təşkil olunan "UI GreenMetric Sustainable University Rankings 2026 Results and Awards Ceremony" beynəlxalq tədbirinin açılış mərasimi keçirilib.

Tədbirin əsas məqsədi ali təhsil müəssisələrində dayanıqlı inkişaf prinsiplərinin təşviqi, yaşıl kampus yanaşmasının inkişaf etdirilməsi, bu istiqamətdə beynəlxalq təcrübə mübadiləsinin və əməkdaşlığın genişləndirilməsidir. Tədbirdə dövlət rəsmiləri, müxtəlif ölkələrdən universitet rəhbərləri, akademiklər, ekspertlər və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Açılış mərasimində elm və təhsil nazirinin müavini Həsən Həsənli, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin (EATDA) direktoru Ülkər Səttarova, İndoneziya Respublikasının Azərbaycandakı səfiri Berlian Helmy, ADNSU-nun rektoru Rüfət Əzizov və IREG Observatory on Academic Ranking and Excellence təşkilatının prezidenti Waldemar Siwinski çıxış ediblər.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli çıxışında Azərbaycanın yaşıl inkişaf gündəliyindən və qlobal ekoloji dialoqda fəal iştirakından bəhs edib. COP29-un Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayan nazir müavini yaşıl inkişaf prinsiplərinin ali təhsil müəssisələrinin fəaliyyətində praktik tətbiqinin vacibliyini qeyd edib, həmçinin Qarabağda həyata keçirilən irimiqyaslı yaşıl layihələrə toxunub.

EATDA-nın direktoru Ülkər Səttarova beynəlxalq reytinqlərin universitetlər üçün son məqsəd deyil, institusional inkişafın istiqamətlərini müəyyənləşdirməyə və beynəlxalq təcrübədən faydalanmağa imkan yaradan vasitə kimi qiymətləndirilməsinin vacibliyini vurğulayıb. O, ali təhsil müəssisələrinin yaşıl keçid prosesindəki roluna diqqət çəkərək dayanıqlılıq prinsiplərinin kampus idarəçiliyi ilə yanaşı, təhsil və elmi-tədqiqat fəaliyyətində də tətbiqinin əhəmiyyətini qeyd edib.

ADNSU-nun rektoru Rüfət Əzizov tədbirin Azərbaycanda keçirilməsinin dayanıqlı inkişaf sahəsində beynəlxalq təcrübə mübadiləsi və universitetlərarası əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb, universitetdə yaşıl kampus prinsiplərinin təşviqi istiqamətində həyata keçirilən təşəbbüslər barədə məlumat verib.

Qeyd edək ki, 23-25 sentyabr tarixlərini əhatə edən tədbir çərçivəsində ali təhsildə dayanıqlılıq, universitetlərin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəsi, yaşıl kampusların inkişafı və beynəlxalq əməkdaşlıq imkanlarına dair panel müzakirələri keçirilib.

# Apellyasiya Şurasının növbəti iclası keçirilib

**Sentyabrın 25-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.**

İclasda Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Maliyyə və təsərrüfat şöbəsinin böyük məsləhətçisi vəzifəsinə namizəd Amil Sayıllının, Tərəfdaşlarla iş və kommunikasiya şöbəsinin İctimaiyyətlə əlaqələr sektorunun məsləhətçisi vəzifəsinə namizəd Əminə İmanzadənin, Sənədlərlə və müraciətlərlə iş sektorunun məsləhətçisi vəzifəsinə namizədlər Nübar Quliyevanın, Aytac Səmədovanın və Ləman Yunusovanın şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 1 şikayətin təmin edilməsi, 3 şikayətin qismən təmin edilməsi, 1 şikayətin təmin edilməməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

# Özbəkistanlı professor-müəllimlər AzTU-da təcrübə keçəcəklər

**Azərbaycan Texniki Universiteti (AzTU) ilə Özbəkistanın Namanqan Dövlət Texniki Universitetinin akademik əməkdaşlığı çərçivəsində tərəfdaş universitetin professor-müəllim heyəti AzTU-ya səfər edib.**

Bir ay davam edəcək təcrübə proqramında Namanqan Dövlət Texniki Universitetinin mexanika, nəqliyyat və energetika mühəndisliyi sahələri üzrə akademik heyəti iştirak edir.

Səfər müddətində qonaqlar AzTU-nun müvafiq kafedralarının fəaliyyəti, tədris prosesinin təşkili, elmi-tədqiqat infrastrukturu və müasir tədris metodları ilə yaxından tanış olacaqlar. Eyni zamanda, universitetin professor-müəllim heyəti ilə təcrübə mübadiləsi aparılacaq, mühəndislik sahələri üzrə birgə tədqiqatların həyata keçirilməsi və elmi-pedaqoji əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunacaq.

Səfər iki universitet arasında mövcud akademik əlaqələrin inkişafına, professor-müəllim heyətinin peşəkar təcrübəsinin artırılmasına və birgə elmi fəaliyyətin təşviqinə xidmət edir.

# Azərbaycan ilə Gürcüstan arasında elm və təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub




## Həsən Həsənli Gürcüstan Parlamentinin Təhsil, Elm və Gənclərlə İş üzrə Komitəsinin sədri ilə görüşüb

Sentyabrın 24-də elm və təhsil nazirinin müavini Həsən Həsənli ölkəmizdə səfərdə olan Gürcüstan Parlamentinin Təhsil, Elm və Gənclərlə İş üzrə Komitəsinin sədri Mariam Laşxi ilə görüşüb.

Görüş çərçivəsində Azərbaycan ilə Gürcüstan arasında elm və təhsil sahəsində cari əməkdaşlıq məsələləri müzakirə olunub, eləcə də gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

# MƏKTƏBLİ FORMALARINA DAİR DƏYİŞİKLİKLƏR TƏSDİQLƏNİB

**Nazirlər Kabineti "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"ndə dəyişiklik edilməsi haqqında" qərar verib. "Azərbaycan müəllimi" xəbər verir ki, qərara əsasən, təhsilalanların müəyyən edilmiş geyim formasının vahidliyini pozan, habelə ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan digər geyim elementlərindən istifadə edilməsinə yol verilmir. Azərbaycan xalqının tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə bağlı keçirilən tədbirlərdə məktəbin Pedaqoji Şurasının qərarı ilə milli geyimlərdən və ya milli geyim elementlərindən istifadə edilməsinə yol verilir. Valideynlər və ya digər qanuni nümayəndələr övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) tərəfindən geyim forması ilə bağlı tələblərə riayət olunmasını təmin etməlidirlər. Bu Sənədin tələblərinə təhsilalanlar tərəfindən riayət olunması ilə bağlı məsələlər məktəbin Pedaqoji Şurası tərəfindən həll edilir. Qərar qəbul edildiyi tarixdən 5 (beş) iş günü müddətində məktəbin rəsmi internet səhifəsində və ya məktəbin məlumat lövhəsində yerləşdirilir.**



# Vahid forma şagirdlər arasında bərabər mühit formalaşdırır

**Nazirlər Kabinetinin qərarı ilə dövlət ümumi təhsil müəssisələrində şagirdlərin geyim formasına dair tələblərə dəyişiklik edilib. Belə ki, qərara əsasən, təhsilalanların müəyyən edilmiş geyim formasının vahidliyini pozan, habelə ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan digər geyim elementlərindən istifadə edilməsinə yol verilmir. Vəkillər Kollegiyasının Deontologiya Komitəsinin sədri, hüquqşünas Paşa Səfərov "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, Azərbaycanda təhsil dünyəvi xarakter daşıyır. Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 96 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"ndə dəyişiklik edilməsi haqqında qərarı xüsusilə məhz bu prinsipin qorunmasına xidmət edir. Hüquqi baxımdan məktəblərdə vahid geyim formasının tətbiqi sosial bərabərlik və ayrı-seçkiliyin qarşısının alınması, nizam-intizam və təhsil mühiti, eyni zamanda təhsilin dünyəvilik prinsipləri ilə əsaslandırılır.**



"Təhsil haqqında" Qanunun 34.2.2-1-ci maddəsinə əsasən, təhsil müəssisəsinin daxili intizam qaydalarına riayət etmək, işgüzar nüfuzunu qorumaq valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində vəzifəsidir:

"Nəzərə almaq lazımdır ki, məktəb daxilində uşaqların maddi vəziyyətindəki fərqliliklərin geyim vasitəsilə nümayiş olunması psixoloji ayrı-seçkiliyə və sosial gərginliyə yol aça bilər. Vahid forma bu sədləri aradan qaldıraraq şagirdlər arasında bərabər mühit formalaşdırır. Bundan əlavə, vahid forma şagirdlərin diqqətini geyimlə bağlı fərqliliyə deyil, birbaşa tədris prosesinə yönəldir. Vahid geyim qaydaları məktəb daxilində sağlam estetik zövqün formalaşmasına və cəmiyyətin ümumi mədəniyyət standartlarının uşaq yaşlarından mənimsənilməsinə birbaşa xidmət edən mühüm sosiallaşma alətidir".

Hüquqşünas əlavə edib ki, milli-mənəvi dəyərlərimizdə və cəmiyyətimizin formalaşmış sosial-mədəni ənənələrində təhsil ocaqlarının ümumi nizamına, kollektiv intizamına hörmətlə yanaşmaq hər zaman yüksək dəyərləndirilib.

O həmçinin vurğulayıb ki, dövlətin ümumi təhsil müəssisələrində təhsil alan yeniyetmələrin yaş xüsusiyyətlərini nəzərə alaraq ümumi geyim standartları tətbiq etməsi onun tənzimləmə səlahiyyətləri çərçivəsindədir:

"Bu, zəruri ictimai intizam tədbiridir. Hüquqi tənzimləmə nəzəriyyəsi baxımından cəmiyyətin hər hansı bir institutunun effektiv fəaliyyət göstərməsi üçün ümumi qaydaların mövcudluğu labüddür və fərdi maraqların kollektiv təhsil məqsədləri ilə uzlaşdırılması hüquqi dövlətin əsas prinsiplərindəndir. Konstitusiyanın təminat verdiyi əsas azadlıqlar çərçivəsində cəmiyyətin ümumi maraqlarının və nizamının qorunması hər bir vətəndaşın üzərinə müəyyən sosial məsuliyyətlər qoyur. Nəzərə alınmalıdır ki, dövlət məktəbləri elm, bilik və ümumi sosiallaşma ocaqlarıdır".

Onun fikrincə, bu mənada tətbiq edilən tənzimləmələr hər hansı məhdudiyyət deyil, əksinə, bütün şagirdlərin keyfiyyətli təhsil hüququndan bərabər şərtlərlə yararlanması üçün zəruri çərçivənin təmin edilməsidir. Cəmiyyətdə qəbul olunmuş ümumi qaydalara əməl etmək öhdəliyinin təmin edilməsi məsələsi ictimai balans nöqtəsidir.

Paşa Səfərovun sözlərinə görə, təhsil mühitinin sağlam və neytral xarakter daşıması məktəb daxilində hamının riayət etməli olduğu ortaq standartların mövcudluğunu nəzərdə tutur. Hamı üçün bərabər və nizamlı mühitin qorunması məqsədilə ümumi geyim və davranış qaydalarının tətbiqi qanunvericiliyin tələblərinə tam uyğundur.

P.Səfərov onu da diqqətə çatdırıb ki, sosial-mədəni uyğunlaşma baxımından məktəb kollektivinin bir hissəsi olan hər bir şagird ümumi nizam-intizam qaydalarına riayət etməklə cəmiyyətdə birgəyaşayış mədəniyyətini öyrənir:

"Fərdi seçimlərin ümumi sosial nizam və təhsil prosesinin mənafeyi naminə müəyyən standartlara uyğunlaşdırılması təhsil müəssisəsində sağlam psixoloji iqlimin qorunmasının əsas şərtlərindən biridir".

O, eyni zamanda xatırladıb ki, qərara əsasən, geyim qaydalarına riayət olunması və təhsil müəssisəsinin daxili nizam-intizam məsələləri birbaşa məktəbin Pedaqoji Şurası tərəfindən tənzimlənir. Pedaqoji Şura hər bir məktəbin yerli xüsusiyyətlərini nəzərə alaraq qərarın icrasını təmin edir.

Hüquqşünasın qənaətinə görə, qərarın digər mühüm tərəfi valideynlərin məsuliyyətini artırmasıdır:

"Valideynlər övladlarının geyim tələblərinə əməl etməsini təmin etməlidirlər. Bu məsələdə maarifləndirmə xüsusi əhəmiyyət kəsb edir. Valideynlər və şagirdlərlə maarifləndirici işlərin aparılması qaydaların "cəza" kimi deyil, ümumi mədəniyyət, nizam-intizam və bərabərlik dəyəri kimi qəbul edilməsinə şərait yaradır".

O əlavə edib ki, məktəb-ailə əməkdaşlığının gücləndirilməsi çərçivəsində həyata keçirilən təşəbbüslər uşaqlarda məsuliyyət hissinin erkən yaşlardan formalaşmasına təkan verir:

"Pedaqoji yanaşmada inzibati tədbirlərdən əvvəl qarşılıqlı dialoqun və izahat işlərinin üstün tutulması qərarların cəmiyyət tərəfindən daha səmərəli qəbul olunmasını və uzunmüddətli müsbət sosial nəticələr verməsini təmin edir", - deyə P.Səfərov qeyd edib.

**Aytac ŞİRİNZADƏ**

# "Yeni tədris ili: Məktəbdə keyfiyyətli başlanğıc"

**Bakı şəhəri 23 nömrəli tam orta ümumtəhsil məktəbində Azərbaycan Müəllimlər Assosiasiyasının (AGMA) təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin tərəfdaşlığı, "Azərbaycan müəllimi" qəzetinin media dəstəyi ilə "Yeni tədris ili: Məktəbdə keyfiyyətli başlanğıc" adlı konfrans keçirilib. Konfransın əsas məqsədi yeni tədris ilinin sistemli və keyfiyyətli şəkildə, müasir pedaqoji yanaşmalar əsasında təşkilinə dəstək olmaq, təhsil ictimaiyyətinin müxtəlif nümayəndələrini bir araya gətirərək məktəbdə keyfiyyətli başlanğıc üçün vacib olan məsələləri müzakirə etmək olub.**



## Azərbaycan Müəllimlər Assosiasiyasının təşkilatçılığı və "Azərbaycan müəllimi" qəzetinin media dəstəyi ilə konfrans keçirilib

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının sədri Pərvinə Qədimova açıb. Tədbirin proqramı çərçivəsində tədris prosesinin keyfiyyətinin artırılması, öyrənmə nəticələrinin izlənilməsi, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi, dərs prosesinin müşahidəsi və müasir tədris yanaşmalarının tətbiqi ilə bağlı aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Konfransda Milli Məclisin deputatı Mehriban Vəliyeva çıxış edərək yeni tədris ilinin uğurlu başlanması üçün təhsil prosesində keyfiyyətin davamlı şəkildə artırılmasının, müəllimlərin peşəkar inkişafının və müasir tədris yanaşmalarının tətbiqinin əhəmiyyətini vurğulayıb. Eyni zamanda, məktəb mühitinin inkişafı və təhsil iştirakçıları arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyinə diqqət çəkib.

Konfransın əsas mövzularından biri "Öyrənməni dəstəkləyən qiymətləndirmə: nəticələrin izlənilməsi və inkişaf üçün məlumatdan istifadə" olub. Mövzu ilə bağlı Təhsil İnstitutunun Metodik dəstək və peşəkar inkişaf mərkəzinin direktoru Nəzakət Mehdiyeva təqdimatla çıxış edib. Təqdimat zamanı öyrənmə nəticələrinin izlənilməsi, əldə olunan məlumatların təhlili və həmin məlumatlardan şagirdlərin inkişafının dəstəklənməsi məqsədilə səmərəli istifadə olunması məsələlərinə diqqət yetirilib.

"Dərsdinləmə: Tədrisin keyfiyyətinin müşahidəsi, təhlili və inkişafı" mövzusunda təqdimatla Təhsil İnstitutunun Metodik xidmətin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Balayeva çıxış edib. Təqdimatda dərsin müşahidəsi və təhlili, dərsdinləmə prosesinin məqsədləri, eləcə də əldə olunan nəticələrin tədrisin keyfiyyətinin inkişafına yönəldilməsi məsələləri diqqət mərkəzində olub.

Konfransın yekun hissəsində "Fəndən bacarığa: Azərbaycan dili, riyaziyyat və həyat bilgisi/təbiət fənlərinin tədrisində müasir yanaşmalar" mövzusunda panel müzakirəsi təşkil olunub.

Panelə Sumqayıt şəhər 32 nömrəli tam orta məktəbin direktoru Fəzilə Mahmudova moderatorluq edib.

Müzakirədə spiker qismində Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdir müavini Aynur Rüstəmova, Təhsil İnstitutunun Metodik dəstək və peşəkar inkişaf mərkəzinin Metodik xidmətin proqramları və standartları şöbəsinin müdiri Afərin Əkbərli, Bakı Mühəndislik Universitetinin Qida və biotexnologiya kafedrasının dosenti, dərslik müəllifi Elşad Yunusov iştirak ediblər.

Panel müzakirəsi zamanı Azərbaycan dili, riyaziyyat və həyat bilgisi/təbiət fənlərinin tədrisində müasir yanaşmalar, biliklərin bacarıqlara çevrilməsi, şagirdyönümlü təlimin təşkili və tədris prosesinin daha səmərəli qurulması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Konfrans çərçivəsində təqdim olunan mövzular və aparılan müzakirələr yeni tədris ilinin daha keyfiyyətli və səmərəli təşkili, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi, müasir pedaqoji yanaşmaların tətbiqi və məktəbdə müsbət öyrənmə mühitinin formalaşdırılması istiqamətində faydalı fikir mübadiləsi üçün imkan yaradıb.

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**

# Qarabağ Universitetinin Xankəndidə fəaliyyətə başlaması böyük quruculuq prosesinin mühüm tərkib hissələrindən biridir



**Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi təntənəli şəkildə qeyd olunan 20 sentyabr tarixi Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasının təcəssüm etdirən, xalqımızın milli qürur və həmrəyliyini ifadə edən əlamətdar gündür. Bunu Qarabağ Universitetinin rektoru Şahin Bayramov Dövlət Suverenliyi Günü ilə bağlı AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında deyib.**

Şahin Bayramov bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti, qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad olunan Xankəndi bu gün yeni inkişaf mərhələsini yaşayır.

"Dövlətimizin yüksək diqqət və qayğısı ilə şəhərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, müasir infrastruktur formalaşdırılır, sosial, təhsil, səhiyyə və mədəniyyət obyektləri tikilir və istifadəyə verilir. Dövlət başçısının Xankəndiyə çoxsaylı səfərləri və burada mühüm layihələrin açılışlarında iştirakı şəhərin Azərbaycanın yeni inkişaf mərhələsində daşıdığı strateji əhəmiyyətinin göstəricisidir. Bu gün Xankəndidə yalnız şəhərin fiziki siması yenilənmir, eyni zamanda yeni sosial, mədəni və intellektual mühit formalaşır. Qarabağ Universitetinin Xankəndidə fəaliyyətə başlaması böyük quruculuq prosesinin mühüm tərkib hissələrindən biri olaraq dəyərləndirilir. 20 sentyabr 2024-cü ildə — Dövlət Suverenliyi Günündə və Xankəndi şəhəri günündə dövlət başçımızın iştirakı ilə Qarabağ Universitetinin açılışının keçirilməsi və fəaliyyətə başlaması xüsusi rəmzi məna daşıyır. Bir tərəfdən Azərbaycanın suverenliyinin tam bərpasını qeyd etdiyimiz həmin gündə, digər tərəfdən azad edilmiş Xankəndidə yeni universitetin fəaliyyətə başlaması şəhərin gələcəyinin elm və təhsil üzərində qurulmasına verilən mühüm əhəmiyyətin ifadəsidir", - deyə Şahin Bayramov vurğulayıb.

Rektor qeyd edib ki, Xankəndidə təhsil alan gənclər üçün bu şəhər sadəcə ali təhsil aldıqları məkan deyil. Bura onların tələbəlik illərinin keçdiyi, dostluqlar qurduğu, ilk elmi araşdırmalarını apardığı, müxtəlif layihələrdə iştirak etdiyi və gələcəklə bağlı planlar qurduğu şəhərdir: "Bu baxımdan hər bir tələbə Xankəndidə şəxsi uğur hekayələrini formalaşdırmaqla şəhər həyatının zənginləşməsində və canlanmasında pay sahibi olurlar. Universitetin kadr hazırlığı və elmi potensialının şəhərin və bütövlükdə Qarabağın inkişaf ehtiyacları ilə əlaqələndirilməsi mühüm istiqamətlərdəndir. Eyni zamanda, universitetin beynəlxalq əlaqələrinin genişlənməsi Xankəndinin qlobal akademik məkanda tanıdılması baxımından mühüm imkanlar açır. Xarici universitetlərin rəhbərlərinin, alimlərin, akademik dairələrin və diplomatik nümayəndələrin Qarabağ Universitetinə səfərləri Xankəndidə formalaşan yeni elm və təhsil mühitinə beynəlxalq marağın artmasının göstəricisidir. Akademik mübadilələr, birgə tədqiqatlar, beynəlxalq tədbirlər və ikili diplom proqramları ilə bu əlaqələrin daha da genişləndirilməsi əsas vəzifələrimizdən hesab olunur. İnanırıq ki, bu gün burada təhsil alan gənclərin böyük bir qismi öz bilik və bacarıqları ilə gələcəkdə doğma Qarabağımızın, o cümlədən Xankəndinin inkişafında fəal rol oynayacaq. Onların bəziləri isə ölkəmizin digər bölgələrində və xaricdə fəaliyyət göstərməli olsalar da, Xankəndini həyatlarının mühüm mərhələsinin — tələbəlik illərinin şəhəri kimi qürurla xatırlayacaqlar".

# "TƏHSİL SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN PROSESLƏRƏ DAHA SİSTEMLİ YANAŞMAĞI ÖYRƏNDİM"

## "Maarifçi"lərin fərqli yanaşmaları

**Elm və Təhsil Nazirliyində növbəti görüş keçirilib. Təlim xarakterli görüşün əsas iştirakçıları bu dəfə də "Maarifçi"lər, qonaq isə onlara artıq tanış olan simalardan biri — Elm və Təhsil Nazirliyinin Strateji planlaşdırma və təhlil şöbəsinin müdiri Leyla Xəlilova Rzazadə idi.**











### "Bu, sadəcə tapşırıqdır"

Leyla Xəlilova Rzazadə IV "Maarifçi" proqramının iştirakçılarına "Elm və Təhsil Nazirliyinin strateji inkişaf yolu xəritəsi" mövzusunda təlim keçib.

Təlim zamanı əvvəlcə strateji planlaşdırmanın əsas sualları ətrafında fikir mübadiləsi aparılıb. Şöbə müdiri qeyd edib ki, planlaşdırma zamanı ilk növbədə "Biz indi haradayıq?" sualına cavab tapılmalıdır. Bunun üçün mövcud vəziyyəti əks etdirən məlumat bazasının olması vacibdir.

Növbəti sual "Hara getmək istəyirik?"dir. Bu isə qısa, orta və uzunmüddətli hədəflərin müəyyənləşdirilməsini tələb edir. "Hədəfimizə necə çatacağıq?" sualına cavab axtararkən maliyyə və insan resurslarından tutmuş, planın kim tərəfindən və necə icra olunacağına, məqsədə çatmaq üçün hansı addımların atılacağına qədər bir çox məsələnin nəzərə alınması zəruridir.

Daha sonra görülən işlərin hansı meyarlarla ölçüləcəyi müəyyənləşdirilməlidir. Monitorinq, qiymətləndirmə və hesabatlılıq da məhz bu mərhələnin əsas komponentlərindəndir. Sonuncu sual isə bütün bu prosesdə "Kim cavabdehdir?" məsələsinə aydınlıq gətirir.

Bu sualların cavabını "Maarifçi"lər elə həmin təlimdə praktik şəkildə axtarıblar. Tapşırıq verilən kimi gənclər komandalar şəklində işə başlayıb, heç bir əlavə göstəriş gözləmədən qarşıya qoyulan məsələyə uyğunlaşıblar. Hər komanda öz "cavabdeh"ini müəyyənləşdirib.

Ardınca "cavabdehlər" təqdimatlarla çıxış edərək komandalarının fəaliyyətini və gəldikləri nəticələri təqdim ediblər. Canlı müzakirələr, fikir mübadiləsi və tapşırığa yanaşmadakı həvəs o qədər yüksək olub ki, gəncləri bunun sadəcə təlim çərçivəsində verilmiş bir tapşırıq olduğuna inandırmaq heç də asan olmayıb.

### ""Maarifçi" proqramı sayəsində gənclərlə birlikdə mən də öyrənirəm"

Təlimin sonunda məqsədə nail olunub. Gəncləri müxtəlif tapşırıqlar ətrafında düşündürən və müzakirələrə cəlb edən Leyla Xəlilova Rzazadə təlimdən razı qalıb.

O, "Azərbaycan müəllimi"nə "Maarifçi"lərin onda yaratdığı təəssüratlardan danışıb:

"İşlədiyim sahə — təhsildə strateji planlaşdırma və hesabatlılıq geniş bir sahədir. Biz bu gün "Maarifçi"lərlə gündəlik işlərimizdən deyil, strateji hədəflərimizdən, həmin hədəflərə çatmağın yolları və alətlərindən, gələcəyə dair planlarımızdan danışdıq, onların fikirlərini soruşdum. Çünki bu məsələlər — planlar, islahatlar məhz müzakirələrdən, ictimai iştirakçılıqdan yaranır".

Şöbə müdiri qeyd edib ki, IV "Maarifçi"lər tələbə həyatını yenicə başa vurmuş gənclər olsalar da, gələcəyə dair düşüncələri var və bu, onların müzakirələrdə fəal iştirakından, əsaslandırılmış fikirlər səsləndirməsindən aydın görünür.

"Təmsil olunduğum sahə elə bir sahədir ki, burada təcrübədən çox müzakirəyə ehtiyac var. Məhz müzakirə etmək, nəticə çıxarmaq bacarığı yüksək olan gənclərlə təlim keçdik. Ümumiyyətlə, düşünürəm ki, hər dəfə "Maarifçi" proqramına daha çox müzakirəyönümlü, fikrini bildirməkdən çəkinməyən gənclər müraciət edirlər".

Gənclərin fəallığı təlimçinin gözləntilərini də doğruldub:

"Bu tip auditoriyalarda və bu yaş qruplarında işləyənlər nəinki müzakirəyə, hətta fikri özünə cəlb etməyə, cavab almağa belə çətinlik çəkirlər. Amma "Maarifçi" gənclər təlimin ilk anlarından maraqlı fikirlər səsləndirdilər, müzakirələrə qoşuldular. Nəticədə mənim üçün də maraqlı olan, özümün də öyrəndiyim, müzakirədən zövq aldığım bir platforma yarandı".

Leyla Xəlilova Rzazadə regional idarələrdə təcrübə keçən və təlimə onlayn qoşulan gənclərlə bağlı təcrübədən də danışıb:

"Biz ötən il də bu təcrübəyə müraciət etmişdik. Sadəcə təlimə qatılanların deyil, iştirak edə bilməyənlərin də təqdimatlarını yazılı şəkildə alırıq. Onların nazirlikdə və tabe qurumlarda fəaliyyəti davam etdiyindən, təqdimatları üzərində müzakirəni bundan sonra da davam etdirə bilərik".

Şöbə müdiri "Maarifçi" proqramının onun üçün də öyrənmə platformasına çevrildiyini vurğulayıb:

"Növbəti — IV "Maarifçi"lərə təlim keçirəm. "Maarifçi" proqramı sayəsində gənclərlə birlikdə mən də öyrənirəm, təlim təcrübəmi artırıram, daha yaxşı olmağa çalışıram".

Gözləri verilən tapşırığı yerinə yetirməyin həyəcanı ilə parıldayan gənclər bu dəfə özlərini Elm və Təhsil Nazirliyinin yerinə qoyaraq qarşıya çıxan məsələlər üçün optimal həll yolları axtarıblar.

Bəs onların yanaşmaları necə olub?

### "Uğurlu təhsil modeli üçün vahid formul yoxdur"

IV "Maarifçi" Aysun Hüseynova təlim çərçivəsində "Elm və Təhsil Nazirliyinin strateji inkişaf yolu xəritəsi" hazırladıqlarını deyib.

"Bu prosesdə təhsil sahəsində həyata keçirilən proseslərə daha sistemli yanaşmağı öyrəndim. Təlim zamanı təhsil siyasətində uzunmüddətli hədəflər müəyyənləşdirdik, müxtəlif təhsil pillələrini bir-biri ilə əlaqələndirdik, eləcə də təhsilin keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində öz yanaşmalarımızı irəli sürdük".

Aysun Hüseynova üçün təlimin ən maraqlı hissələrindən biri beynəlxalq təcrübənin öyrənilməsi olub:

"Finlandiya, Estoniya və Sinqapur təcrübələrinin müqayisəsi mənim üçün çox maraqlı oldu".

Gənc "Maarifçi" təlimdən özü üçün mühüm bir nəticə çıxarıb:

"Fərqli ölkələr eyni məqsədə — keyfiyyətli və gələcəyə uyğun təhsil sisteminin qurulmasına — müxtəlif yollarla çatmağa çalışır. Deməli, uğurlu təhsil modeli üçün vahid formul yoxdur. Finlandiya nümunəsində məktəb və müəllimlərin qərarvermə imkanlarının, Estoniya təcrübəsində rəqəmsallaşmanın və təhsil məlumatlarından sistemli istifadənin, Sinqapurda isə bacarıqların davamlı inkişafı və ömürboyu öyrənmə yanaşmasının ön plana çıxması bunu xüsusilə aydın göstərir.

Bir də anladım ki, başqa ölkələrin uğurlu təcrübəsini olduğu kimi tətbiq etmək deyil, həmin yanaşmaların hansı şəraitdə və hansı ehtiyaclara cavab verdiyini düzgün qiymətləndirmək daha vacibdir. Strateji planlaşdırmaya bu prizmadan yanaşmaq mənə həm Azərbaycanın təhsil sistemində müəyyən edilən prioritetləri daha yaxşı anlamağa, həm də beynəlxalq təcrübəyə daha analitik baxmağa imkan verdi".

### "Fikirlərimizin nazirliyin gündəmi ilə kəsişməsi xoş hiss idi"

IV "Maarifçi" Nigar Civişova da "Azərbaycan müəllimi" ilə təlimin yaddaqalan məqamlarını bölüşüb:

"Təlim zamanı təhsil sistemində həyata keçirilən islahatlar, Elm və Təhsil Nazirliyinin mövcud fəaliyyət istiqamətləri və qarşıdakı dövr üçün müəyyən etdiyi strateji hədəflər haqqında məlumat əldə etdik. Leyla xanım mövzunu interaktiv şəkildə təqdim edərək bizi müzakirələrə cəlb etdi və öz fikirlərimizi bölüşməyə imkan yaratdı".

Onun üçün təlimin ən maraqlı məqamlarından biri "Mən Elm və Təhsil Nazirliyinin yerində olsaydım..." yanaşması olub:

"Ən önəmlisi, "Mən Elm və Təhsil Nazirliyinin yerində olsam..." fikrinin sonunu nazirlikdə tamamladım. Başqa şəraitlərdə hər birimiz bu sualı verib təhsil sisteminin inkişafı ilə bağlı öz təklif və yanaşmalarımızı səsləndirmişik. Amma biz bu barədə fikrimizi məhz nazirlikdə ifadə etdik. Ən maraqlısı isə o idi ki, düşüncələrimizin bir çoxu nazirliyin gündəmindədir. Bu, həqiqətən xoş bir hiss idi. İnsan öz fikirlərinin və baxışlarının daha geniş strateji yanaşmalarla kəsişdiyini görəndə özünü fərqli hiss edir. Bu hissi bu təlimdə yaşadım, maraqlı təcrübə oldu".

Gənc "Maarifçi" üçün təlimin əsas nəticəsi isə daha geniş məna daşıyıb:

"Bu görüş mənə bir daha göstərdi ki, təhsil sisteminin gələcəyi haqqında düşünmək yalnız qərarverici şəxslərin deyil, bu sahənin bir parçası olan hər birimizin məsuliyyətidir".

**Ruhiyyə DAŞSALAHLI**

Rekord nəticə

# UNİVERSİTETLƏRİMİZ DÜNYA REYTİNQİNDƏ

**Universitetlər davamlı inkişafa necə töhfə verə bilər? Ali təhsil müəssisələrinin ölkənin yaşıl konsepsiyasında rolu nədir? Bu suallar bütün dünya ölkələrindən olan universitetlər üçün konseptual əhəmiyyət daşıyır. Sentyabrın 24-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində keçirilən beynəlxalq konfrans çərçivəsində elan olunan ali təhsil müəssisələrinin davamlı inkişafa töhfəsini ölçən “UI GreenMetric World University Rankings” tədqiqatının 2026-cı il üçün nəticələri məhz bu suallara cavab verir. İndoneziya Universiteti tərəfindən 2010-cu ildə universitet kampuslarının davamlılığı səylərini ölçmək üçün hazırlanan tədqiqatın arayış hissəsində qeyd olunur ki, builki 17-ci nəşr 110 ölkədəki 71 şəhərdə fəaliyyət göstərən 2016 ali təhsil müəssisəsini əhatə edir ki, bu da tədqiqatı institusional dayanıqlılıq göstəricilərinin qiymətləndirilməsinə həsr olunmuş ən böyük qlobal universitet reytinq sistemi edir. Builki reytinqin mövzusu "İdarəetmə, rəqəmsallaşdırma və inteqrasiya olunmuş performans vasitəsilə davamlı kampusların inkişafı" adlanır. Reytinq müəllifləri qeyd edirlər ki, gələcək naminə dayanıqlı kampuslar qurmaq üçün kollektiv öhdəliyi gücləndirərək, bütün dünya üzrə universitetlərin daha çox iştirakını təşviq etməyə davam edəcəyik.**




## Yaşıllaşan universitetlərimiz

Azərbaycan UI GreenMetric reytinqində sürətlə irəliləyir. Bu inkişaf 2026-cı ilin qlobal nəticələrində özünü göstərir. Azərbaycan universitetlərinin sayı bu reytinqdə durmadan artır. Adıçəkilən reytinqdə 2025-ci ildə Azərbaycanın 19 universiteti yer alıbsa, onların sayı bu il rekord həddə çatıb. Builkli reytinqdə Azərbaycanın 22 ali təhsil müəssisəsi yer alıb:

1. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
2. Bakı Dövlət Universiteti
3. Azərbaycan Texniki Universiteti
4. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
5. Azərbaycan Memarlıq və İnşaat Universiteti
6. Mingəçevir Dövlət Universiteti
7. Bakı Slavyan Universiteti
8. Qərbi Kaspi Universiteti
9. Bakı Ali Neft Məktəbi
10. Azərbaycan Dillər Universiteti
11. Naxçıvan Dövlət Universiteti
12. Sumqayıt Dövlət Universiteti
13. Milli Aviasiya Akademiyası
14. Azərbaycan Dövlət Aqrar Universiteti
15. Bakı Avrasiya Universiteti
16. Azərbaycan Tibb Universiteti
17. Bakı Mühəndislik Universiteti
18. Azərbaycan İdman Akademiyası
19. Azərbaycan Dövlət Pedaqoji Universiteti
20. Lənkəran Dövlət Universiteti
21. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
22. Azərbaycan Texnologiya Universiteti

2026-cı ildə beş Azərbaycan universiteti TOP-500-ə daxil olub: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Memarlıq və İnşaat Universiteti.

Əhəmiyyətli bir nailiyyət Mingəçevir Dövlət Universitetinin reytinqdə yer alan (514-cü yer) yeganə regional universitet olmasıdır (2025-ci ildə qlobal reytinqdə 897-ci yerdə olub).

Qeyd edək ki, reytinqdə məqsəd universitetlərin təmiz enerji, suya qənaət, tullantıların təkrar emalı, ekoloji nəqliyyatdan istifadə, davamlı inkişaf sahəsində ekoloji maarifləndirmə və tədqiqatların həyata keçirilməsi sahəsində nailiyyətlərini ölçməklə qlobal iqlim dəyişikliyi problemlərini öyrənməkdir.

### UI GreenMetric qlobal dəyəri

Reytinq bütün dünyada universitetlərdə davamlılıq səyləri və institusional təkmilləşdirmələrlə bağlı mövcud şərtlər və siyasətlər üzrə onlayn sorğunun nəticələrini təqdim etmək məqsədi daşıyır. Universitet rəhbərlərinin və maraqlı tərəflərin diqqətini cəlb etməklə qlobal iqlim dəyişikliyinə, təmiz enerjiyə, suyun qorunmasına, tullantıların təkrar emalına, yaşıl nəqliyyata və davamlılıq üzrə təhsil və tədqiqatlara daha çox diqqət yetiriləcəyi gözlənilir.

Reytinq bir sıra meyarların qiymətləndirilməsinə əsaslanır: kampus infrastrukturu və onun ətraf mühitlə əlaqəsi; enerji siyasəti; suyun effektiv idarə edilməsi; tullantıların idarə edilməsi siyasəti; nəqliyyat vasitələrinin istifadəsi; ekoloji məsələlər üzrə tədrisin təşkili; ekoloji problemlərin tədqiqinə həsr olunmuş resurslar; Google Scholar tərəfindən indeksləşdirilmiş yaşıl mövzular üzrə dərc edilmiş elmi məqalələrin sayı.

Reytinqdə lider mövqeləri Wageningen University & Research (Hollandiya) və Trier Tətbiqi Elmlər Universiteti (Almaniya) kimi yüksək nəticələrə malik universitetlər tutur.

### Reytinqin məqsədləri

Reytinq aşağıdakı hədəflərə yönəlib:

- təhsilin davamlılığı və kampusun yaşıllaşdırılması ilə bağlı akademik müzakirələrə töhfə vermək;
- universitet rəhbərliyi altında davamlı inkişaf məqsədləri ilə bağlı sosial dəyişiklikləri təşviq etmək;
- bütün dünyada ali təhsil müəssisələri (universitetlər) üçün kampus davamlılığının özünü qiymətləndirmə vasitəsi olmaq;
- hökumətləri, beynəlxalq və yerli ətraf mühitin mühafizəsi agentliklərini və cəmiyyəti şəhərcikdəki davamlılıq proqramları barədə məlumatlandırmaq.

### Faydaları nələrdir?

UI GreenMetric-də iştirak universitetin beynəlmiləlləşməsinə və tanınmasına kömək edə bilər. Universitetlər dünyanın digər ali təhsil müəssisələri ilə rəqabət edərək “qlobal xəritədə” sabitliyə nail olurlar. UI GreenMetric-də iştirak universitetin veb saytına daxil olanların sayının artmasına səbəb ola bilər. Davamlı inkişaf məsələləri ilə əlaqədar daha çox qurum haqqında qeydlər, bir universitet kimi güclü dayanıqlılıq qayğısı universitet və onun məzunlarının ictimaiyyət tərəfindən tanınmanı artıra bilər. Dünyanın aparıcı reytinq şirkətlərindən olan GreenMetric World University Ranking beynəlxalq reytinqi ali təhsl müəssisələrinin “yaşıl universitet” quruculuğu yönündə səylərini nəzərə alır.

### "Yaşıl universitet şəhərciyi"

Qeyd edək ki, dünyanın əksər universitetlərində “Yaşıl universitet şəhərciyi” (yaşıl kampus) konsepsiyası geniş yayılıb ki, bu da universitetdə ekoloji təcrübələrin tətbiqi, yaxşılaşdırılması, tələbə və işçilərin eko-mədəniyyət səviyyəsinin yüksəldilməsini əhatə edir.

“Yaşıl universitet” ətraf mühitin qorunmasına yönəlik fəaliyyət göstərən bir universitetdir: karbon dioksid emissiyalarını azaldır, tullantıları ayrıca toplayır, su və elektrik enerjisinə qənaət edir və ekoloji infrastrukturu inkişaf etdirir. Bu məqsədlər üçün müsbət ekoaksiyalar və ekofestivallar aparılır, ayrı-ayrı zibil toplama sistemi təşkil edilir, enerji səmərəliliyi artırılır, ərazi abadlaşdırılır, maarifləndirmə işləri aparılır. Bu tədbirlər universitetin fəaliyyət sahəsində ekoloji prinsiplərin tətbiqinə; tələbələr və işçilər arasında ekoloji mədəniyyətin ümumi səviyyəsinin, məsuliyyət hissinin yüksəldilməsinə; universitetin yeni “yaşıl” imicinin formalaşdırılmasına; ekoloji aksiyaların təşkili ilə ali təhsil müəssisəsinin beynəlxalq tanınmasına xidmət edir.

“GreenMetric” hesab edir ki, bu reytinq ilə universitet rəhbərlərinin diqqətini cəlb etməklə bütün dünyada tələbələr tərəfindən ətraf təbiətə məsuliyyətli münasibəti artırmaq olar. Reytinqin təşkilatçıları bəzi ekoloji problemlərin həlli üçün ətraf mühitin davamlı inkişafı siyasətinin aparılması zərurətinə akademik ictimaiyyətin diqqətini cəlb etməyə çalışırlar.

Reytinqdə mövqe nə qədər yüksəkdirsə, tələbələr, rəhbərlik, professorlar və müəllimlər planetin davamlı inkişafı və ekoloji vəziyyətindən bir o qədər narahatdırlar. Bu o deməkdir ki, universitet ətraf mühitin qorunması üçün gələcək nəsil qarşısında öz məsuliyyətini bilir, regionun və ölkənin davamlı inkişafını təkcə elmi tədqiqatlar və tələbə təşəbbüsləri ilə deyil, həm də şəxsi nümunə kimi dəstəkləməyə hazırdır.

**Oruc MUSTAFAYEV**

---

DÖVLƏT PROQRAMI TƏQAÜDÇÜSÜ

# ““Heydər Əliyev adına təqaüd”ə layiq görülməyim mənim üçün qürurvericidir”



**"İnsan hansı sahəyə maraq göstərirsə, həmin istiqamətdə öz üzərində davamlı işləməli və əlindən gələnin ən yaxşısını etməlidir. Mən də sonrakı təhsil həyatımda bu prinsipi qorumağa çalışdım". Bu fikirlər DP qalibi Sibel Əsgərovaya məxsusdur. “Azərbaycan müəllimi”nin müsahibi olan Sibel “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində 2026-2027-ci tədris ilində Edinburq Universitetində “Süni intellekt” ixtisası üzrə magistratura təhsili alacaq.**

## "Bizlərə dünyanın qabaqcıl universitetlərində təhsil almaq imkanı yaradılır"

S.Əsgərova Şəki şəhər fizika-riyaziyyat və humanitar təmayüllü liseydə təhsil alıb. 2020-ci ildə "Sabahın alimləri" müsabiqəsində riyaziyyat nominasiyası üzrə III yerə layiq görülüb. 2022-ci ildə liseyi qızıl nişanla bitirib. Elə həmin il 645 balla Bakı Dövlət Universitetinin “Kompüter elmləri” (tədris ingilis dilində) ixtisasına qəbul olub.

Sibel bu ixtisas üzrə təhsil almasının onun üçün yeni bir mərhələnin başlanğıcı olduğunu söyləyir:

“Universitet illərində həm akademik göstəricilərimi yüksək saxlamağa, həm də dərslərdə öyrəndiklərimi praktik şəkildə tətbiq etməyə çalışdım. Bakalavr təhsilimi 98.11/100 orta göstərici ilə başa vuraraq fakültə üzrə ən yüksək orta göstəriciyə sahib oldum. Akademik nailiyyətlərimə görə universitet tərəfindən də mükafatlandırıldım”.

Müsahibimiz deyir ki, təhsildəki yüksək nailiyyətləri ilə bağlı aldığı təqaüdlər ona hər zaman stimul verir: “Heydər Əliyev adına təqaüd”ə layiq görülməyim mənim üçün xüsusilə qürurvericidir. Bu, həm akademik fəaliyyətimin qiymətləndirilməsi, həm də qarşıma daha böyük məqsədlər qoymağım üçün mənə əlavə stimul verdi”.

Universitetdə təhsil alarkən özünü yalnız akademik istiqamətdə inkişaf etdirməklə kifayətlənməyən Sibel eyni zamanda bilik və bacarıqlarını başqaları ilə paylaşıb. Süni intellekt və proqramlaşdırma üzrə dərslər keçib, tələbələrə mentorluq edib. Müxtəlif tədbirlərdə və seminarlarda süni intellektlə bağlı mövzularla çıxışlar edib:

“Mənim üçün öyrənmək və öyrətmək bir-birindən ayrı deyil. İnsan bildiyini paylaşdıqca həm özü inkişaf edir, həm də ətrafındakı insanların inkişafına səbəb olur”.

Uğurlu gənc peşəkar fəaliyyətə təhsil aldığı müddətdə başlayıb. Azərbaycan Respublikasının Kosmik Agentliyində təcrübə keçərək peyk görüntüləri və coğrafi məlumatlarla işləmək imkanı qazanıb. Daha sonra müxtəlif süni intellekt və coğrafi məlumat layihələrində iştirak edib.

Edinburq Universitetində “Süni intellekt” ixtisası üzrə magistratura təhsili alacaq Sibel dünyanın qabaqcıl universitetlərindən birində yeni biliklər əldə etməklə yanaşı, beynəlxalq mühitdə qazanacağı təcrübə sayəsində güclü mütəxəssis kimi formalaşmağı hədəfləyib: “Dövlət Proqramının bu yolumda xüsusi əhəmiyyəti var. Mən bu proqramı gənclərə yaradılan böyük bir imkan olmaqla yanaşı, həm də böyük bir etimad kimi görürəm. Bizlərə dünyanın qabaqcıl universitetlərində təhsil almaq imkanı yaradılırsa, bunun qarşılığında əldə etdiyimiz bilikləri gələcəkdə ölkəmizin inkişafına yönəltmək məsuliyyətini də daşıyırıq. Mənim üçün xaricdə təhsilin ən böyük dəyəri də məhz budur. Dünyanın müxtəlif ölkələrindən olan insanlarla bir mühitdə olmaq, onların təcrübələrindən faydalanmaq, yeni bilik və bacarıqlar qazanmaq, əldə etdiyimiz bu təcrübəni isə daha sonra Azərbaycana gətirmək biz gənclərin üzərinə düşən mühüm vəzifələrdəndir”.

DP qalibi qeyd edir ki, insanın ən böyük üstünlüklərindən biri öyrənməkdən heç vaxt yorulmamasıdır:

“Qarşımıza böyük məqsədlər qoymaqdan çəkinməməliyik. Eyni zamanda harada olmağımızdan asılı olmayaraq, üzərimizə düşən vəzifələri ən yaxşı şəkildə yerinə yetirməyə çalışmalıyıq”.

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**

# BMU-nun magistrantı Çində 3 müsabiqənin qalibi olub

**Bakı Mühəndislik Universiteti (BMU) ilə Pekin İnşaat Mühəndisliyi və Memarlıq Universiteti (BUCEA) arasında həyata keçirilən ikili diplom proqramının magistrantı Sənur Məmmədli növbəti uğura imza ataraq Çində süni intellekt və mədəni irs sahəsində apardığı tədqiqatlara görə üç müsabiqədə birinci dərəcəli mükafata layiq görülüb.**

Proqramın tələbəsi "IX Ümumçin 5 Dəqiqəlik Elmi Tədqiqat" müsabiqəsində, eləcə də Çin Təhsil Nazirliyinin "FLTRP · ETIC Cup" platforması çərçivəsində keçirilən "Dörd Yeni Tədqiqat" və "Qısametrajlı Video" müsabiqələrində birinci dərəcəli mükafat əldə edib.

Sənur Məmmədli ilk müsabiqədə "Dunxuan Mogao mağaralarının eroziyaya uğramış divar rəsmlərində rənglərin rəqəmsal bərpası: şərti GAN-lar və gizli diffuziya modellərinin müqayisəli tədqiqi" adlı tədqiqat işi ilə uğur qazanıb. Müsabiqənin nəticələrinə əsasən, o, Çin Akademik İngilis Dili Assosiasiyası və Fudan Universiteti Nəşriyyatı tərəfindən rəsmi sertifikatla təltif olunub.

İkinci müsabiqədə isə magistrant "Mogao modeli əsasında Şəki Xan Sarayının profilaktik mühafizəsi üçün domenə uyğunlaşdırılmış süni intellekt çərçivəsi" adlı tədqiqat işi ilə birinci dərəcəli mükafata layiq görülüb.




Tədqiqat işində Çin təcrübəsi əsasında Azərbaycanın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Şəki Xan Sarayının süni intellekt əsaslı, səkkiz mərhələdən ibarət profilaktik konservasiya layihəsi təqdim olunub. Sözügedən tədqiqat işi oktyabr ayında Pekin Xarici Dillər Universitetində keçiriləcək "Çində Azərbaycanşünaslıq üzrə II Beynəlxalq Akademik Konfrans"da təqdim olunmaq üçün də qəbul edilib.

Bundan əlavə, Sənur Məmmədlinin "Qısametrajlı video" müsabiqəsinə təqdim etdiyi "Remote Similarity: From Sheki to Dunhuang" adlı video münsiflər tərəfindən 95,88 balla qiymətləndirilib və birinci dərəcəli mükafata layiq görülüb.

Videoda Azərbaycan mədəniyyəti və incəsənəti haqqında məlumat verilir, həmçinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycan ilə Çin arasında dostluq və əməkdaşlıq münasibətlərindən bəhs olunur. Video universitetin qalib layihəsi kimi Bilibili platformasında geniş auditoriyaya təqdim edilib.

Çinin tarixi Dunxuan bölgəsində aparılan sahə tədqiqatlarının davamı olaraq, gənc tədqiqatçının hazırladığı səyahətnamə "Şanxay Nianyi Mədəniyyəti" platforması tərəfindən ingilis və Çin dillərində ictimaiyyətə təqdim edilib.

İkili diplom proqramı magistrantının bu uğurları BMU-nun dünyanın aparıcı ali təhsil və elmi-tədqiqat mərkəzləri ilə əməkdaşlığının genişləndirilməsi istiqamətində fəaliyyətlərinin nəticələrindən biridir.

Xatırladaq ki, BMU ilə BUCEA arasında magistratura üzrə ikili diplom proqramının icrasına ötən ildən başlanılıb. Hazırda Çində təhsilini davam etdirən tələbələr proqramı bitirdikdən sonra hər iki ali məktəbin magistr diplomunu alacaqlar.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** Mob.: (010) 253-30-86; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu,
Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 35.135 **Sifariş:** 1250

**Məsul növbətçi:** S.Kərimova

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

*aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə*

**ELAN EDİR:**

**Kafedralar üzrə boş olan vəzifələr:**

1. **Azərbaycan dili** - müəllim, 1 yer; müəllim, 1 yer, 0.75 ştat;
2. **Praktik xarici dillər** - müəllim, 4 yer;
3. **Bədən tərbiyəsi və idman** - müəllim, 1 yer;
4. **Azərbaycan tarixi** - müəllim, 1 yer, 0,5 ştat;
5. **Botanika** - müəllim, 1 yer, 0,75 ştat;
6. **Anatomiya, fiziologiya və zoologiya** - müəllim, 1 yer;
7. **Ümumi riyaziyyat** - müəllim, 3 yer, 0,5 ştat;
8. **İnformatika və cəbr** - müəllim, 1 yer, 0,75 ştat;
9. **İdarəetmə** - müəllim, 2 yer;
10. **Menecment və turizm işi** - professor, 1 yer; müəllim, 1 yer;

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması» Qaydalarına və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında» Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**ÜNVAN:** *AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.*
*Gəncə Dövlət Universiteti, əsas bina (I)*
**Telefon:** *(022) 266-01-89*
**Rektorluq**

# Etibarsız sayılır

**Beyləqan rayon** Bünyadlı kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Əliyeva Naridə Azər qızına verilmiş A-640057 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 71 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş İbrahimov Samir Gülağa oğluna verilmiş E-212871 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2016-cı ildə Eminli Fəridə İsmayıl qızına verilmiş AT-002340 nömrəli baza ali tibb təhsili diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Çıraqlı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Nəcəfova Sahilə Cahid qızına verilmiş A-542430 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Alıuşağı kənd tam orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Məmmədov Elburus Pənah oğluna verilmiş АИ-815355 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 38 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Təhməzov Turxan Fayil oğluna verilmiş B-502269 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci** tərəfindən 2022-ci ildə Babayeva Fatimə Fuad qızına verilmiş AA-171525 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 9 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Vəliyeva Rumiyyə Nizami qızına verilmiş B-089540 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qobustan rayon** Xilmilli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Mansurova (Osmanova) Nairə İmran qızına verilmiş 112229 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Ölcələr kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Muradova Aygül Şükür qızına verilmiş B-265120 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 13 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Xəlilova Cəmalə Dilbazi qızına verilmiş A-172483 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Rvo kənd tam orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Abbasova Şirin Oruc qızına verilmiş 719129 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu şəhər** 1 nömrəli məktəb-liseyi 2014-cü ildə bitirmiş Cəlalzadə (Şirəliyeva) Səbinə Telman qızına verilmiş A-360886 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** II Şahsevən kənd tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Talıbova Səma Eldayaq qızına verilmiş E-835813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 10 nömrəli Peşə Liseyi (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2016-cı ildə Ayanoğlu (Axundova) Pərvin Məhərrəm qızına verilmiş B-083704 nömrəli diplom və A-492634 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Quliyeva Aygün İbrahim qızına verilmiş A-022129 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Yuxarı Nüvədi kənd tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Suvarova Nəzrin Ruslan qızına verilmiş E-290097 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Ağayrı kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Gözəlov Elçin Qərib oğluna verilmiş E-588462 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Mamaylı kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Məsimova Rəhimə Məsim qızına verilmiş B-211240 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Mamaylı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Muxtarlı Nigar Əhməd qızına verilmiş A-659902 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Əmirzeydli kənd tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Quliyeva Sevər Sahib qızına verilmiş C-379463 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 30 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Baxşəliyev Məhər Hilal oğluna verilmiş E-501361 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Hüseynov Qüdrət Əsədulla oğluna verilmiş A-301341 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 74 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Babaverdiyev Eltac Əkbər oğluna verilmiş E-678235 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Abışabad kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Sucəddinova (Abdinova) Zəminə Ərşad qızına verilmiş A-159453 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı İslam Universiteti** tərəfindən 2001-ci ildə Nağıyev Əli Qasım oğluna verilmiş 0516 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 237 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Məmmədova (Yusifzadə) Vüsalə Vidadi qızına verilmiş ümumi orta təhsil haqqında attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2025-ci ildə Abdullayeva Mələk Xaqani qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Kimya Texnologiya Texnikumu** (Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci) tərəfindən 1990-cı ildə Ərzimanov Əlman Fərux oğluna verilmiş HT-I-544951 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Noda kənd ümumi orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Mehtiyeva (Əmrəliyeva) Nahidə Firudin qızına verilmiş A-509698 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Kür qəsəbə tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Gülalıyeva (Xəlilova) Aynurə Akif qızına verilmiş AN-355793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** Z.Əliyeva adına 7 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Rüstəmov Elvin Nurəddin oğluna verilmiş A-516891 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 87 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Abdinova Dinara Mahmudovnaya verilmiş A-029641 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Hüseynov Məhəmməd Afət oğluna verilmiş E-487751 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Qazax filialı** tərəfindən 2000-ci ildə Osmanova Könül Vaqif qızına verilmiş A-060506 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 17 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Seyidova Ülkər Mehdi qızına verilmiş B-182585 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye-Pedaqoji Texnikumu** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2005-ci ildə Bodurova Nərmin Sədrəddin qızına verilmiş BB-II-016799 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Pirəmsən kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Vüsal Əlsafa oğluna verilmiş E-497067 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyini** 2012-ci ildə bitirmiş Həsənov Hüseyn Həsən oğluna verilmiş A-084830 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Qaralar kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Xansuvarlı Könül Ələddin qızına verilmiş A-549241 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2025-ci ildə Əliyeva Şəhla Namik qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Məmmədli Gülüstan Ramin qızına verilmiş E-779761 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Həsənli Röyal Rahim oğluna verilmiş E-396128 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Fərzullayev Orxan Mehman oğluna verilmiş B-255263 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ləkçıplaq kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Ağayev Elmar Araz oğluna verilmiş E-849847 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Quluzadə Mübariz Ramiz oğluna verilmiş E-567404 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 257 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş İsmayılova Pərvanə Tariyel qızına verilmiş A-433607 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbi** tərəfindən 1982-ci ildə Cəfərov Natiq Aydın oğluna verilmiş ДТ-I-759845 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Baza Tibb Məktəbi** (indiki 1 nömrəli Bakı tibb kolleci) tərəfindən 1988-ci ildə Allahverdiyeva (Hüseynova) Əmanət Əhməd qızına verilmiş MT-I-278488 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Turizm Peşə Məktəbini** 2018-ci ildə bitirmiş Mirzəyev Fərdi Famil oğluna verilmiş A-110981 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb-liseyi 2024-cü ildə bitirmiş Qurbanov İlkin Sevindik oğluna verilmiş E-667259 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.